# Azərbaycanın reytinqi dinamik yüksəlişdədir

## *Dünyanın ən güclü ölkələrinin reytinqində Azərbaycan 45-ci yerdə qərarlaşıb*



***"U.S.News" jurnalında dərc olunan reytinq siyahısında Azərbaycanın dünyanın 80 ən güclü ölkələri arasında 45-ci yerdə qərarlaşması, ölkəmizdə dövlət başçımızın rəhbərliyi altında aparılan uğurlu siyasətin göstəricisi kimi qeyd etmək olar. Bu gün bu jurnalın göstəricilərində Azərbaycanın tutduğu mövqe və bir çox Avropa ölkələrini ötməsi, təbii ki, ölkəmizin inkişafından xəbər verir. Bu da, real faktordur ki, Azərbaycan öz iqtisadiyyatını, öz siyasətini hansısa reytinqlərə görə aparmır. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasətdə əsas məqsəd ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Və bu gün beynəlxalq reytinq təşkilatlarının Azərbaycanı yüksək səviyyələrdə sıralaması günün reallığıdır və xaricdən bizə baxılanda, görünən sevindirici nəticələrdir. Azərbaycan dünyanın ən güclü ölkələrinin reytinqində 45-ci yerdə qərarlaşmaqla, ölkəmiz Portuqaliya, Kolumbiya, Tailand, Argentina, Çexiya, Xorvatiya və digər başqa ölkələri qabaqlayıb.***

### Azərbaycan dünyada böyük nüfuza malik olan ölkədir

Bu gün beynəlxalq reytinq təşkilatlarının Azərbaycanı yüksək səviyyələrdə sıralaması günün reallığıdır və Azərbaycanın dünyada böyük nüfuza malik olan ölkə olduğunun təsdiqidir və Azərbaycanın bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Sosial-siyasi islahatların, davamlı olaraq həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin təmin olunması və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Müasir dövrdə qloballaşma şəraitində ayrı-ayrı ölkələrin və beynəlxalq münasibətlər sisteminin durumunu xarakterizə edərkən, ən çox maliyyə-iqtisadi və siyasi böhran hallarına rast gəlinir. Xüsusilə, də ayrı-ayrı regionlarda konfliktlərin, müharibələrin mövcud olması, inkişaf etmiş iqtisadiyyata və siyasi sistemə malik olan ölkələrdə isə, sabitliyin öz yerini xaosa verməsi qlobal kataklizmlərin mövcudluğundan xəbər verir.

Eyni zamanda, bu gün Azərbaycan ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasındadır. Ölkəmizdə bütün sahələrin inkişafına təkan verən mühüm amillərdən biri olmaq etibarilə ictimai-siyasi sabitlik həm də milli təhlükəsizliyimizin qarantı qismində çıxış edir. Birmənalı tərzdə qeyd etmək olar ki, Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər və inkişaf modelləri təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şərait yaradılması kimi göstəricilər və nəticələr deyilənləri təsdiq edir. Çünki ictimai-siyasi sabitlik inkişafın əsasını təşkil edir. Bu baxımdan da, bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik adası kimi səciyyələndirilə bilər.

### Reytinqlərdə Azərbaycan reallığı

Gəlin real faktlara müraciət edək. "Rəqabətqabiliyyətlilik" indeksinə görə Azərbaycan 141 ölkə arasında, "mülkiyyət hüquqlarının qorunması" üzrə 37-ci və "əqli mülkiyyətin qorunması" göstəricisinə görə isə, 30-cu yerdə qərarlaşıb. Burada diqqəti cəlb edən odur ki, 2015-2016-cı illərdən bu göstərici, ardıcıl olaraq yaxşılaşır. Bu indeksdə 92-ci yerdən 2016-2017-ci illərdə 71-ci, 2017-2018-ci illərdə 37-ci, sonra 36-cı və nəhayət, 2019-cu ildə 30-cu yerdə qərarlaşıb.

Yeri gəlmişkən, Azərbaycan Dünya Bankının hesabladığı "Hökumətin səmərəliliyi" sub-indikatoru üzrə 2007-2018-ci illərdə regionda ən çox irəliləyiş edib. Həmin dövrdə Azərbaycan 7, Qazaxıstan 6, Özbəkistan 5, Gürcüstan 5 və Qırğızıstan 2 pillə irəliləyə bilib.

Digər fakt isə, Azərbaycanın "Qlobal Rəqabətlilik hesabatı"nda 140 ölkənin arasında, məhkəmənin müstəqilliyi meyarına görə 39-cu, hökumət tənzimlənməsinin yükü meyarına görə 3-cü, hökumətin siyasətin davamlılığını təmin etməsi meyarına görə 11-ci, hökumətin dəyişikliklərə reaksiyası meyarına görə 5-ci, hökumətin uzunmüddətli vizyonu meyarına görə 10-cu pillədə qərarlaşıb. ASAN, DOST, ABAD, Bir Pəncərə, İxraca Dəstək Mərkəzi, Şəbəkə və s. xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 100 faizə yaxındır. Ən əsası odur ki, islahatların sistemli, rəvan və hər hansı gərginlik olmadan aparılması islahatlara inamı artırır. Azərbaycan ictimai-siyasi kataklizmlər yolu ilə deyil, təkamül yolu ilə inkişaf edir. Hazırda dünyada rəqabət idarəetmə sistemləri arasında gedir. Azərbaycan, məhz idarəetmənin səmərəliliyini artırmaqla, qlobal səviyyədə rəqabətlilik potensialını gücləndirir.

### Vüqar Bayramlı: "Azərbaycanın ən islahatçı 20 ölkə sırasında yer alması, ölkəmizin hər zamankı kimi, birinci olduğunun təsdiqidir"

Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı ekspert Vüqar Bayramlı bildirib ki, Azərbaycan hər zamankı kimi birincidir. "U.S.News" jurnalında dərc olunan reytinq siyahısında Azərbaycanın dünyanın 80 ən güclü ölkələri arasında 45-ci yerdə qərarlaşması dövlət başçımızın rəhbərliyi altında, aparılan uğurlu siyasətin göstəricisi kimi qeyd etmək olar. Eyni zamanda, Azərbaycan 2017-2018-ci illərdə ən çox islahat aparmış 10 ölkədən biri kimi dəyərləndirilib. Eyni zamanda, ölkəmiz aparılan islahatların sayına görə dünyada birincidir.

Ekspert vurğulayıb ki, "Doing Business 2020"də isə, Azərbaycanın ən islahatçı 20 ölkə sırasında yer alması ölkəmizdə həyata keçirilən iqtisadi islahatlara verilən beynəlxalq qiymət kimi xarakterizə olunmalıdır: "Nəzərə alsaq ki, xüsusən, 2015-ci ildən etibarən Azərbaycanda dərinləşmiş iqtisadi islahatlar aparılır. Bu da, beynəlxalq hesabatların reytinqlərində, eləcə də, Dünya Bankı kimi aparıcı qurumun "Doing Business" hesabatında özünü əks etdirir. Həmin hesabat həm dövlət, həm də sahibkar və xüsusən də, investisiya həyata keçirmək niyyətində olan iş adamları üçün vacibdir. Çünki onlar investisiya qərarları verən zaman, bir neçə mühüm hesabata diqqət ayırırlar ki, həmin hesabatların ən vaciblərindən biri də, məhz "Doing Business" hesabatıdır. Beynəlxalq qiymət həm xarici investisiyaların cəlb edilməsi, ölkənin iqtisadi potensialının tanıdılması və təqdim olunmasına yardım edir, həm də islahatlar aparıldıqca, ölkəmizin beynəlxalq hesabatlarda mövqeyinin daha da yaxşılaşmasına səbəb olur. Bu baxımdan, "Doing Business" hesabatında mövqeyimizin yaxşılaşması birbaşa 2015-ci ildən dərinləşdirilən islahatların nəticəsi olaraq, xarakterizə olunmalıdır".

Onun sözlərinə görə, "Doing Business 2020"yə dair islahat icmalının təqdim edilməsi, ondan xəbər verir ki, Azərbaycan hökuməti növbəti illərdə də islahatları davam etdirmək və dərinləşdirmək niyyətindədir: "Doing Business"in əsas fəlsəfəsi və qiymətləndirmə meyarı ondan ibarətdir ki, xidmətlərin alınması üçün tələb edilən günlərin, prosedurların sayında azalmalar olsun, iş adamları, vətəndaşlar daha az xərclər və xidmətlərdən faydalana və yararlana bilsinlər. Məqsəd beynəlxalq hesabatlarda mövqeyimizin yaxşılaşdırılması ilə yanaşı, iş adamlarının daha yaxşı biznes mühitindən faydalana və xidmətlərdən elektron qaydada yararlana bilmələridir. Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 65 faizdən çoxu, məhz Azərbaycanın payına düşür. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə, dünya ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirirlər. Bütün bu uğurlar isə Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin nəticələrinə beynəlxalq təşkilatların verdiyi qiymət olmaqla yanaşı, milli sahibkar üçün də yeni imkanların yaradıldığından xəbər verir. Bütövlükdə, hesabat göstərir ki, xüsusən, elektron xidmətlərin daha çox istifadə olunması vətəndaşların, eləcə də, biznesin dövlət xidmətlərinin elektron olaraq əlçatanlığın təmin edilməsi Azərbaycanın beynəlxalq hesabatlardakı mövqeyinə birbaşa təsir göstərib. Bu da, bir tərəfdən, təbii ki, 2015-ci ildən etibarən aparılan iqtisadi islahatların dərinləşməsinin qiymətləndirilməsidir. Nəticə olaraq, bu, islahatların davamlılığı ilə bağlı beynəlxalq qiymətdir. Bu da, onu göstərir ki, Azərbaycan növbəti dövrlərdə də dərinləşmiş islahatları davam etdirəcək".

Bir sözlə, bütün reytinqlərdə Azərbaycanın güclü ölkələr arasında yer alması bir daha onu göstərir ki, ölkəmiz daima dinamik yüksəlişdədir.

**RƏFİQƏ KAMALQIZI**